| | |
|---|---|
| AzDAX — Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Akkreditasiya Xidməti | **Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Dövlət Akkreditasiya Xidməti** |

# Dövlət Akkreditasiya Xidmətinin 2016-2017-ci illər üçün keyfiyyət üzrə məqsədləri

1. DAX-ın fəaliyyətinə AZS İSO/İEC 17011-2013 standartından irəli gələn tələblər əsasında zəruri prosedur və sənədlər hazırlansın və tətbiq edilsin;
2. DAX-ın İLAC-ın (Laboratoriyaların Akkreditasiyası üzrə Beynəlxalq Əməkdaşlığı Təşkilat) assosiativ üzv olması istiqamətində işlər aparılsın;
3. EA-ya (Akkreditasiya üzrə Avropa Əməkdaşlıq Təşkilatı) assosiativ üzv olması istiqamətində işlər aparılsın;
4. DAX-ın əməkdaşlarının Akkreditasiya sahəsində beynəlxalq və regional təşkilatların forum və iclaslarında iştirakı təmin edilsin;
5. Tərəfsizliyin və qərəzsizliyin təmin edilməsi üçün Akkreditasiya üzrə Məsləhətçi Şura yaradılsın;
6. Şikayət və apellyasiyaların baxılması prosesinin təkmilləşdirilməsi üçün Apellasiya Şurası yaradılsın;
7. DAX-ın əməkdaşlarının və cəlb edilən ekspertlərin səriştəliliyinin artırılması üçün yerli və xarici mütəxəssislərin iştirakı ilə müvafiq təlim və seminarlar keçirilsin;
8. DAX-ın akkreditasiya fəaliyyətini müşaiyət edən xüsusi proqram təminatı tətbiq edilsin və müvafiq məlumat bazası yaradılsın;
9. DAX-ın potensialının İLAC-ın, İAF-ın (Akkreditasiya üzrə Beynəlxalq Forum) və EA-ın tələblərinə müvafiq olaraq gücləndirilməsi məqsədi ilə təşkil ediləcək tvininq proqramında DAX-ın əməkdaşlarının, daxili və xarici ekspertlərin iştirakı təmin edilsin;
10. AZS İSO/İEC 17011-2013 standartının 6.1.4-cü bəndinə əsasən məxfilik tələbinin yerinə yetirilməsi üçün "Məxfilik bəyənnaməsi" hazırlanaraq, akkreditasiya prosesinə cəlb olunan personallar tərəfindən qəbul edilməsinə nail olunsun.